

*Əjdər Qiyaslı*
*iqtisadçı alim, şair*

# *LAYİQLİ QIZISAN AZƏRBAYCANIN*

***Görkəmli alim, böyük şəxsiyyət, siyasi elmlər doktoru, professor Hüseynova Hicran xanıma ithaf edirəm.***

***Zəmidə sünbüllər tel-tel daranır,***
***Hicrantək xanımlar az-az yaranır.***

**Dünyaya göz açıb gələndən bəri,**
**Qurumaq bilməyir alnının təri.**
**Ömrünü, gününü elmə vermisən,**
**Atanı, ananı sevindirmisən.**
**Ömürdən ayrılıb hər ötən anda,**
**Onlar fərəhlənib sənə baxanda.**
**Görüblər yaşayır... düşməyib bəndə,**
**Nigarın, Həcərin qeyrəti səndə.**
**Sənin qeyrətinə min dəfə əhsən,**
**İlk siyasi elmlər doktorusan sən!**
**Bax bunda görürəm məharətini,-**
**İnsanlıq, alimlik ləyaqətini!**
**Elə ləyaqət ki, əbədi solmur,**
**Hər yetən insana o qismət olmur...**
**Belə yollar keçib ömür karvanın,**
**Zirvələr fəth edib sənin sarvanın.**
**Yolunu azmayıb dumanda, çəndə;**
**Tanrıya güvənib dara düşəndə.**
**Şəfəqlər nur saçıb nurlu üzünə,**
**Zəkan işıq verib sənin gözünə.**
**Sənin qeyrətini görürük onda,-**
**Şam kimi yanırsan Vətən uğrunda!**
**Həyatda bundadır sevincin, şənin,-**
**Dadına çatırsan dara düşənin.**
**Hamının gözündə çox yüksəlirsən,**
**Atan Kamran kimi kara gəlirsən!**
**Çay həmişə qızıl balıq gətirməz,**
**Kamranı zəmanə bir də yetirməz!**
**Sən ondan almısan əzmi, qüdrəti;**
**İşində mətinsən, sözündə qəti!**
**Yaxşılıq etmisən sən yığın-yığın;**
**Tükənməz dəryadır xeyirxahlığın!**
**Ellər bəhrələnir sənin barından,**
**Alır sevincini könül tarından.**
**Qəlbində sönməyən çılçıraq yanır,**
**Yaxşılıq etdikcə ömrün uzanır.**
**Xeyirxah işlərin tükənmir yenə,**
**Çox zəka bəxş olub Allahdan sənə.**
**Adına layiqdir şöhrətin, şanın;**
**Layiqli qızısan Azərbaycanın!**

**13.08.2016**